# MÜASİR AZƏRBAYCAN İQTİSADİYYATININ FORMALAŞMASININ ƏSAS MƏRHƏLƏLƏRİ

**Elşən Bağırzadə**

*iqtisad üzrə fəlsəfə doktoru*

**Bakı - 2014**

# MÜSTƏQİLLİYƏ QƏDƏRKİ DÖVR...

- **XIX əsrin sonu XX əsrin əvvəlləri**:
  - Qurudan çıxarılan Azərbaycan nefti və “Bakı kapitalizmi”nin formalaşması.
- **Azərbaycan Xalq Cumhuriyyəti:**
  - Kapitalist münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılması təşəbbüsləri.
- **Sovet Azərbaycanı:**
  - Dənizdə də neftin çıxarılmağa başlanması və iqtisadiyyatda neft sektorunun dominantlığı;
  - Qeyri-neft sənayesində və aqrar sektorda müəyyən potensialın formalaşması;
  - Aşağı səmərəliyə malik sosialist (və ya planlı) və müstəmləkə iqtisadiyyatı.

# MÜSTƏQİLLİYİN ELAN EDİLMƏSİ...

- **"Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında" Konstitusiya Aktının qəbul edilməsi (25.05.1991).**
- **Konstitusiya Aktında iqtisadi müstəqilliyimizin aşağıdakı prinsiplər əsasında qurulacağı qeyd edilmişdir:**
  - Respublika ərazisinin hüdudları daxilində torpaq, yerin təki, daxili sular və ərazi suları, qitə şelfi, bitkilər və heyvanlar aləmi, hava hövzəsi üzərində Azərbaycan Respublikasının mülkiyyəti;
  - Xəzərin Azərbaycan Respublikası ərazisinə bitişik iqtisadi zonasının ehtiyatlarına, beynəlxalq hüquqla təsdiq edilmiş hüdudlara sahiblik, istifadə və sərəncam hüququ;
  - Yaradılmış Ümumittifaq sərvətində payı olmaq;
  - SSRİ-nin almaz və valyuta fondlarında, qızıl ehtiyatlarında öz payına sahiblik, Respublikanın xeyrinə bu paydan istifadə və ona sərəncam hüququ;
  - Bütün mülkiyyət formalarının hüquq bərabərliyi və hüquqi müdafiəsi;
  - Sahibkarlıq fəaliyyətinin sərbəstliyi;
  - Tələb və təklifin bazar münasibətləri;
  - İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi;
  - Başqa dövlətlərlə iqtisadi ittifaqlara könüllü daxil olmaq və çıxmaq;
  - Azərbaycan ərazisində xarici investisiyaların qorunması.

# MÜSTƏQİLLİYİN ELAN EDİLMƏSİ...

- **“Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında” Konstitusiya aktının qəbul edilməsi (18.10.1991):**
  - Aktın qəbulu ilə Azərbaycan Respublikasının Azərbaycan Xalq Cumhuriyyətinin varisi olduğu, demokratik, müstəqil, dünyəvi və unitar dövlət quruculuğuna başladığı dünyaya bəyan edilmişdir.
  - Aktda dövlətin, iqtisadi və siyasi qurluşun əsasları müəyyən edilmiş və Azərbaycanın azad bazar iqtisadiyyatı yolunu tutduğu və eyni zamanda da sosial dövətin qurulmasını hədəflədiyi göstərilmişdir.

# MÜSTƏQİLLİK DÖVRÜ...

- **Əsas mərhələlər:**
  - İqtisadi böhran və tənəzzül dövrü (1991-1995);
  - İqtisadi stabilləşmə və bazar islahatları dövrü (1995-2003);
  - Dinamik iqtisadi inkişaf dövrü (2003 və sonrası)

# 1991-1995-Cİ İLLƏR...

- **İqtisadi vəziyyət:**
  - ÜDM istehsalının ildən ilə azalamsı;
  - İşsizliyin ildən ilə artması;
  - İşğal nəticəsində ölkənin 20% ərazisinin iqtisadi dövriyydən çıxması;
  - Maliyyə-bank sisteminin iflic vəziyyətdə olması;
  - Büdcə kəsrinin ifrat həddə çatması;
  - Pul emissiyasının ifrat həddə çatması (əhali gəlirlərinin 45%-ə);
  - Kreditlərin yüksək həddə (ÜDM-nin 60%-ə) çatması;
  - İnflyasiyanın 3-4 rəqəmli səviyyədə olması;
  - Mərkəzi Bankın faiz dərəcəsinin 250%-ə çatması;
  - Milli valyutanın hədsiz dəyərdən düşməsi;
  - Xarici ticarət dövriyyəsinin 40%-dən çox azalması;
  - Əhalinin real pul gəlirlərinin hədsiz aşağı düşməsi;

# 1991-1995-Cİ İLLƏR...






# 1991-1995-Cİ İLLƏR...

- **İslahat təşəbbüsləri:**
  - “Mülkiyyət haqqında” Qanunun qəbul edilməsi (09.11.1991) ilə ölkədə mülkiyyət formaları və mülükiyyət hüquqları təsbit edilmişdir.
  - “Qiymət və tariflərin sərbəstləşdirilməsi haqqında” Prezident Fərmanının (02.01.1992) və “Qiymət və tariflərin sərbəstləşdirilməsi haqqında” Nazirlər Kabineti Qərarının qəbul edilməsi ilə bəzilərinin dövlət tərəfindən tənzimlənməsi nəzərədə tutulmaqla, digər bütün məhsul və xidmətlərin qiymətləri sərbəstləşdirilmişdir.
  - “Xarici investisiyaların qorunması haqqında” Qanunun qəbul edilməsi (15.01.1992) ilə ölkədə xarici investisiya qoyuluşlarının iqtisadi və hüquqi əsasları müəyyən edilmiş və xarici investorların hüquqlarının müdafiəsinə təminat verilmişdir.
  - “Milli Bank haqqında” və “Banklar və bank fəaliyyəti haqqında” qanunların qəbul edilməsi (07.08.1992) ilə ölkədə ikipilləli bank sisteminə keçilmişdir.
  - Manat milli valyuta olaraq dövriyyəyə buraxılmışdır (15.08.1992).
  - “Sahibkarlıq fəaliyyəti haqqında” Qanunun qəbul edilməsi (12.12.1992) ilə azad sahibkarlıq fəaliyyətinin hüquqi əsasları formalaşdırılmışdır. Həmçinin “Azərbaycanda Sahibkarlığın İnkişafı(1993-1995)” adlı dövlət proqramı da qəbul edilmişdir.

# 1991-1995-Cİ İLLƏR...

– “Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında” Qanunun qəbul edilməsi (07.01.1992) ilə ölkədə özəlləşdirmə prosesinin hüquqi əsasları formalaşdırılmışdır.
– “AR-də Mənzil Fondunun Özəlləşdirilməsi Haqqında” Qanunun qəbul edilməsi (26.01.1993) ilə mənzillər özəlləşdirilməyə başlanmışdır.
– “Antiinhisar fəaliyyəti haqqında” Qanunun qəbul edilməsi (04.03.1993) ilə ölkə iqtisadiyyatında sağlam rəqabət mühitinin formalaşdırılmasının hüquqi əsasları təsbit edilmişdir.
– “Müəssisələr haqqında” (01.07.1994) və “Səhmdar cəmiyyəti haqqında” (12.07.1994) qanunların qəbul edilməsi ilə firmaların fəaliyyətinin təşkilti-hüquqi əsasları müəyyən edilmişdir.
– “Büdcə sistemi haqqında” Qanunun qəbul edilməsi (01.12.1992) ilə büdcə sisteminin tənzimlənməsinə çalışılmışdır.
– “Valyuta tənzimlənməsi haqqında” Qanunun qəbulu (21.10.1994) ölkədə valyutaların dövriyyəsi qaydaları müəyyən edilmişdir.

# 1991-1995-Cİ İLLƏR...

- **"Əsrin müqaviləsi"nin imzalanması:**
  - 20 sentyabr 1994-cü ildə Azərbaycanın əsas neft yataqları olan Azəri-Günəşli-Çıraq yataqlarının işlənməsi üzrə dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə imzaladığı "Hasilatın Pay Bölgüsü" sazişidir.
  - Saziş Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunması, ölkənin gələcək iqtisadi inkişafı və dünya iqtisadiyyatına inteqrasiyası baxımından fövqəladə əhəmiyyətə malik olmuşdur.

# 1995-2003-CÜ İLLƏR...

- **İqtisadi vəziyyət:**
  - İqtisadiyyatda stabillik əldə edilmişdir;
  - Bazar iqtisadiyyatına keçid istiqamətində geniş miqyaslı islahatlar həyata keçirilmişdir;
  - Ölkənin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması istiqamətində böyük layihələr reallaşdırılmışdır;
  - İqtisadiyyata xarici sərmayələrin cəlbi sahəsində mühüm nailiyyətlər əldə edilmişdir.
  - 1995-2003-cü illər arasında ÜDM 90,1%, büdcə gəlirləri 3 dəfə, valyuta ehtiyatları 85 dəfə, sənaye istehsalı 25,2%, kənd təsərrüfatı istehsalı 53,9%, xarici ticarət dövriyyəsi 4 dəfə, orta aylıq əmək haqqı 5,6 dəfə artmış, iqtisadiyyata qoyulan investisiyalaırn həcmi isə 20 mlrd dolları keçmişdir.
  - 1998-1999-cu illərdə ilk dəfə olaraq deflyasiya baş vermiş, 1999-cu ilin dekabrında Azərbaycanın “mənfəət nefti” ilə doldurulmuş ilk tanker dünya bazarına çıxarılmış, 2000-ci ildən xarici ticarətdə müsbət saldo ortaya çıxmışdır.

# 1995-2003-CÜ İLLƏR...






# 1995-2003-CÜ İLLƏR...

- **İslahatlar:**
  - 1994-cü ilin sonlarında Beynəlxalq Valyuta Fondu ilə razılaşdırılan stabilləşdirmə proqramı 1995-ci ildən tətbiq edilməyə başlanılmışdır. Sərt pul-kredit siyasətinə əsaslanan proqramın icrası nəticəsində:
    - iqtisadi geriləməyə son qoyulmuş,
    - inflyasiya cilovlanmış,
    - büdcə kəsiri minimuma endirilmiş,
    - maliyyə-bank sistemi nizama salınmışdır.
  - Dövlət əmlakının özəlləşdirilməsi mühüm dərəcədə (kiçik və orta) həyata keçirilmişdir. “1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramı” (20.09.1995),”Dövlət əmlakının özəlləşdirilməsi II dövlət proqramı”(10.08.2000), “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Qanun (16.05.2000) və “Dövlət müəssisələrinin (obyektlərinin) müqavilə əsasında idarəetməyə verilməsi haqqında” (09.02.1996) Prezident Fərmanı qəbul edilmişdir.

# 1995-2003-CÜ İLLƏR...

- Aqrar islahatlar həyata keçirilmişdir. “Aqrar islahatlar haqqında” və “Kolxoz və sovxozların islahatı haqqında” (18.03.1995), “Torpaq islahatı haqqında” (16.07.1996) və “Torpaq bazarı haqqında” (07.05.1999) qanunlar qəbul edilmişdir. Nəticədə 1695,1 min hektardan çox torpaq sahəsi əvəzsiz olaraq kəndlilərə paylanmış, kolxoz və sovxozların bazasında fermer təsərrüfatları yaradılmışdır.
- Azad sahibkarlıq mühitinin formalaşdırılması yönündə islahatlar həyata keçirilmişdir. “İnvestisiya fəaliyyəti haqqında” (13.01.1995), “Haqsız rəqabət haqqında” (02.06.1995), “Reklam haqqında” (03.10.1997), “Sosial sığorta haqqında” (18.02.1996), “Sığorta haqqında” (25.06.1999), “Qiymətli kağızlar haqqında” (14.07.1998), “Əmək miqrasiyası haqqında” (28.10.1999), “İmmiqrasiya haqqında” (12.03.1999), “Beynəlxalq arbitraj haqqında” (18.11.1999) qanunlar, “Gömrük məcəlləsi” (25.07.1997), “Vergilər məcəlləsi” (30.08.2000), “Valyuta tənzimləməsini sərbəstləşdirmək haqqında” (25.02.1995) və “AR-da xarici ticarətin daha da liberallaşdırılması haqqında”(24.06.1997) Fərmanlar qəbul edilmişdir.Bunlarla yanaşı “Azərbaycanda Kiçik və Orta Sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000-ci illər)” da icra edilmişdir.

# 1995-2003-CÜ İLLƏR...

– “Milli Bank Haqqında” (10.06.1996) və “Banklar və Bank Fəaliyyəti Haqqında” (14.07.1996) yeni qanunların qəbulu ilə bank sistemi yenidən tənzimlənməyə başlanmışdır.
– Azərbaycan neftinin dünya bazarına çıxarılması marşurutları diversifikasiya edilmişdir. 1997-ci ildə Bakı-Novorosiysk, 1999-cu ildə Bakı-Supsa neft ixrac kəmərləri istifadəyə verilmiş, 2002-ci ildə əsas ixrac neft kəməri olan Bakı-Tiflis-Ceyhan kəmərinin tikintisinə başlanılmışdır. 1999-cu ildə “Çıraq” yatağından çıxarılan neftin Supsa limanından ixraca başlaması ilə Azərbaycan nefti ilk dəfə olaraq Şimala yox, Qərbə doğru istiqamət götürmüşdür.
– Neft gəlirlərin idarə edilməsi məqsədilə 1999-cu ildə Neft Fondu yaradılmışdır.

# 2003 VƏ SONRASI…

- **İqtisadi vəziyyət:**
  - İqtisadi artım sürətlə davam etmişdir.
  - Qeyri-neft sektorunun orta illik artım tempi 11% olmuşdur.
  - Azərbaycan Cənubi Qafqaz üzrə yaradılan əlavə dəyərin 70%-dən çoxuna sahib olmuşdur.
  - Ölkə Dünya Bankının təsnifatına əsasən “yuxarı orta gəlirli” ölkələr qrupuna daxil olmuşdur.
  - Ölkə BMT İnsan İnkişafı Proqramının nəşr etdiyi İnsan İnkişafı İndeksində “yüksək insan inkişafı” olan ölkələr qrupuna daxil olmuşdur.
  - Dünya İqtisadi Forumuna görə ölkə iqtisadiyyatı rəqabətqabiliyyətlilik göstərəcisi üzrə MDB-də ilk sıradadır.
  - 2010-cu ildən keçid dövrü rəsmi olaraq başa çatmışdır.

# 2003 VƏ SONRASI…






# 2003 VƏ SONRASI…

- **Həyata keçirilən iqtisadi siyasət tədbirləri:**
  - İkinci dövlət özəlləşdirmə proqramı həyata keçirilmişdir.
  - Kiçik və orta sahibkarlığın inkişafı proqramları həyata keçirilmişdir.
  - Sənayenin inkişafı proqramları həyata keçirilmişdir.
  - Aqrar bölmənin inkişafı proqramları həyata keçirilmişdir.
  - Turizmin inkişafı proqramları həyata keçirilmişdir.
  - Yoxsulluqla mübarizə və davamlı iqtisadi inkişaf proqramları həyata keçirilmişdir.
  - Regionların sosial-iqtisadi inkişaf proqramları həyata keçirilmişdir.
  - İnsan kapitalının inkişafı sahəsində dövlət proqramları həyata keçirilmişdir.
  - İqtisadiyyatda şəffaflığın təmin edilməsi və korrupsiya ilə mübarizə proqramları həyata keçirilmişdir.
  - Dövlət investisiya proqramları həyata keçirilmişdir.
  - Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı proqramları qəbul edilmişdir.
  - Neft və qaz gəlirlərinin uzunmüddətli idarə olunması strategiyası qəbul edilmişdir.
  - Məşğulluq strategiyası qəbul edilmişdir.
  - Hazırda 60-a yaxın dövlət proqramı, strategiya və konsepsiya fəaliyyət göstərir.

# 2003 VƏ SONRASI…

- **Hazırda hökumət qarşısında dayanan əsas iqtisadi prioritetlər**:
  - Makroiqtisadi stabilliyin qorunması;
  - İqtisadi inkişafın dayanıqlılığının təmin edilməsi;
  - İqtisadi artımın keyfiyyətinin təmin edilməsi;
  - İqtisadiyyatın diversifikasiya edilməsi;
  - İnnovativ iqtisadiyyatın qurulması;
  - Aqrar sektorun intensiv üsullara keçirilməsi;
  - İqtisadiyyatın klasterləşdirilməsi;
  - Enerji, ərzaq və ekoloji təhlükəsizliyin gücləndirilməsi.

# 2003 VƏ SONRASI…

- **"Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında(29.12.2012) iqtisadi hədəflər:**
  - 2020-ci ildə Azərbaycan iqtisadi və siyasi cəhətdən inkişaf etmiş, rəqabətqabiliyyətli ölkə olacaqdır.
  - 2020-ci ildə adambaşına ÜDM 2 dəfə artaraq 13000 dollar olacaqdır.
  - 2020-ci ildə adambaşına qeyri-neft ixracı 1000 dollar olacaqdır.
  - 2020-ci ilədək qeyri-neft ÜDM-nin orta illik real artım tempi 7%-dən çox olacaqdır.
  - 2020-ci ilədək əhali hər il orta hesabla 1,1% artaraq 10,2 milyona çatacaqdır.

# 2003 VƏ SONRASI…

- Yüksək rəqabətqabiliyyətli iqtisadiyyat qurulması məqsədilə,
  - səmərəli dövlət tənzimlənməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi model formalaşdırılacaq;
  - iqtisadi struktur təkmilləşdiriləcək və qeyri-neft sektoru inkişaf etdiriləcək;
  - elmi potensial və innovasiya fəaliyyətləri dəstəklənəcək.
- Nəqliyyat, tranzit və logistika infrastrukturu təkmilləşdiriləcək;
- Bölgələrin tarazlı inkişafı təmin ediləcək;
- İKT-nin inkişafı və informasiya cəmiyyətinə keçid təmin ediləcək;
- İnsan kapitalı inkişafı etdiriləcək və səmərəli sosial müdafiə sistemi qurulacaqdır.

# İSTİFADƏ OLUNAN MƏNBƏLƏR


- Aras O. N., Süleymanov E. (2010), “Azərbaycan iqtisadiyyatı”, Bakı: Şərq-Qərb. http://ebooks.azlibnet.az/book-qUreBt0n.html
- “Azərbaycan” portalı. www.azerbaijan.az
- Azərbaycanın statistik göstəriciləri. http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
- “Azərbaycan 2020: Gələcəyə Baxış” inkişaf konsepsiyası. http://www.president.az/files/future_az.pdf
- Bağırzade E. (2011), “Bağımsızlığının XX. Yılında Azerbaycan Cumhuriyeti Ekonomisi”, Hacettepe Üniversitesi Türkiyat Araştırmaları Dergisi, Güz (15), s. 277-312. http://elsenbagirzade.files.wordpress.com/2011/03/bagimsizliginin-20-yilinda.pdf
- Bağırzadə E. (2003), “Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın transformasiya olunmasının hüquqi əsasları”. http://elsenbagirzade.files.wordpress.com/2011/03/bazar-iqtisadiyyati-seraitinde-iqtisadiyyatin-transformasiya-olunmasinin-huquqi-esaslari.pdf.